# MDB PA komissiyalarının iclaslarında

Mayın 29-da Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının (MDB PA) Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbirdə MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvü - MDB PA-nın Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının sədr müavini Polad Bülbüloğlu iştirak edib.

Polad Bülbüloğlunun sədrlik etdiyi iclasda "Messenatlıq və xeyriyyəçilik fəaliyyəti haqqında", "Uşaqların onların sağlamlığına və inkişafına zərər vuran informasiyadan qorunması haqqında" model qanunların yeni redaksiyaları, həmçinin "Su hövzələrində mədəni irs obyektlərinin dövlət mühafizəsinin təmin edilməsi haqqında" model qanun layihəsi və digər qanun layihələri ətrafında müzakirələr aparılıb, müvafiq qərarlar qəbul edilib.

❖ ❖ ❖




Sonra Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının (MDB PA) Hüquqi məsələlər üzrə daimi komissiyasının da videokonfrans formatında iclası keçirilib.

İclasda MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvü - MDB PA-nın Hüquqi məsələlər üzrə daimi komissiyasının sədr müavini Əminə Ağazadə iştirak edib.

Tədbirdə "Ailə-məişət zorakılığına qarşı hüquqi tənzimləmə haqqında", "Əmlakın istifadəyə verilməsi üçün müqavilələr haqqında", "Vasitəçilik müqavilələri haqqında" və digər model qanun layihələri üzərində işlərin gedişi barədə fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Həmin gün Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının (MDB PA) Dövlət quruculuğu və yerli özünüidarəetmə təcrübəsinin öyrənilməsi üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.




Onlayn iclasda MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvü - MDB PA-nın Dövlət quruculuğu və yerli özünüidarəetmə təcrübəsinin öyrənilməsi üzrə daimi komissiyasının üzvü Mübariz Qurbanlı iştirak edib.

"Dövlət paytaxtlarının, respublika əhəmiyyətli şəhərlərin və rayon mərkəzlərinin statusu haqqında", "Kreativ sənayelər haqqında" və digər model qanun layihələri müzakirə olunub, MDB-də növbəti dövr üçün model qanun yaradıcılığının uzunmüddətli planına dair təkliflərə baxılıb.

İclasda MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvü Mübariz Qurbanlı MDB PA-nın Dövlət quruculuğu və yerli özünüidarəetmə təcrübəsinin öyrənilməsi üzrə daimi komissiyasının sədr müavini seçilib.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 30 may (№111).- S.11.